# İsveçrə şirkətinin COP29-da iştirak edən nümayəndə heyəti Ağstafada olmuşdur

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən panel müzakirələr üçün Azərbaycanda işgüzar səfərdə olan İsveçrənin "iCsquared GmbH" şirkətinin prezidenti Zoltan Ştuçlikin başçılıq etdiyi nümayəndə heyəti Ağstafa rayonuna səfər edib.**



Qonaqlarla görüşən rayon icra hakimiyyətinin başçısı Seymur Orucov ölkələrimiz arasındakı iqtisadi münasibətlərdən söz açaraq şirkətin Ağstafada icra edəcəyi beynəlxalq layihələrin regionda aqrar sahənin inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə ABAK-da (Ağstafa Beynəlxalq Aqroklasterlər) VASSERŞTAYN İsveçrə-Azərbaycan Plantasiyaları çərçivəsində həyata keçiriləcək layihələr çərçivəsində ayrılacaq torpaq sahələri, özünüməşğulluğun təmin edilməsi məqsədilə işlərə yerli sakinlərin cəlb olunması, suvarmaya əlçatanlıq, maşın-mexanizmlərdən istifadə və s. bu kimi vacib məsələlər müzakirə olunmuşdur.

Qonaqlara Azərbaycanın milli-mənəvi dəyərlərini təcəssüm etdirən hədiyyələr təqdim edildikdən sonra onlar Ağstafadakı Heydər Əliyev Mərkəzini ziyarət etmişlər. Görüş rayonun mədəniyyət və incəsənət nümayəndələrinin klassik və milli musiqilərimizdən ibarət konsert proqramı ilə başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.20.